UOT 021:004

**Abbasov S.**
*Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi, Özbəkistan, Daşkənd ş., Heydər Əliyev küç., 9.*
*e-mail:samir-culture@mail.ru*

# AZƏRBAYCAN RESPUBLIKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİNİN PREZİDENT KİTABXANASINDA AVTOMATLAŞDIRILMIŞ KİTABXANA-İNFORMASİYA SİSTEMLƏRİNİN TƏTBİQİ

**Açar sözlər:** *Azərbaycan, kitabxana, kitabxana-informasiya sistemləri, elektron informasiya, Prezident Kitabxanası*

**Giriş.** *Bu gün qloballaşan dünyada kitabxanalar kommunikasiya vasitəsi kimi olduqca böyük rol oynamaqla cəmiyyətin informasiyalaşdırılması prosesində çox əhəmiyyətli iş görürlər. Bəşəriyyətin tarixi inkişaf məhələlərində olduğu kimi, son onillikdə də informasiya, elmi-texniki və sosial tərəqqinin mühüm vasitələrindən biri olmuş, hazırda isə cəmiyyətin informasiyalaşdırılması ilə əlaqədar olaraq aparıcı qüvvəyə çevrilmişdir. Bununla əlaqədar olaraq yeni kitabxana-informasiya mühiti formalaşdırılmışdır. Bu dövrdə nəinki kitabxanalar, həm də bir sıra qurumlar informasiya emalı proseslərinə cəlb olunmuşdur. Cəmiyyətdə informasiya proseslərinin avtomatlaşdırılması xeyli dərəcədə genişlənmiş, yeni tipli informasiya sistemləri yaradılmışdır və onların funksiyalarından asılı olaraq onları informasiya axtarışı, informasiya idarəetmə, hesablama, məlumatın işlənməsi, kitabxana informasiya sistemləri və s. adlandırılmışdır (1).*

Xalqımızın yaratdığı qiymətli tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin qorunub saxlanılmasında, bəşər mədəniyyətinin qazandığı nailiyyətlərin nəsildən-nəslə çatdırılmasında və cəmiyyətimizin intellektual-mənəvi potensialının artırılmasında, informasiyalaşdırılmış cəmiyyətinin və biliklər cəmiyyətinin qurulmasında kitabxanaların üzərinə böyük vəzifələr düşür.

Müasir dövrdə yeni informasiya texnologiyaları kitabxanaların qarşısında çox geniş imkanlar açmış, onları prinsipcə yeni məsələləri həll etmək zərurəti qarşısında qoymuşdur. Bu proseslər qlobal xarakter daşıyır və Azərbaycan kitabxanaları da tədricən həmin proseslərə qoşulur. İnternet şəbəkəsinə qoşulmaq imkanı müasir kitabxanaya informasiya mənbələrinin sayını artırmaq və istifadəçilərin sorğularını təmin etmək üçün daha geniş imkanlar yaratmışdır.

Kitabxanalarda informasiyalaşmanın bu səviyyəsini yüksək qiymətləndirən Azər baycanın kitabxana-informasiya sahəsində tanınmış alim, professor A.Xələfov özünün fundamental əsərində respublika kitabxanalarının Avtomatlaşdırılmış Kitabxana-İnformasiya Sistemlərinin tətbiqini təqdirəlayiq hal olduğunu bildirir və bu sahədə M.F.Axundov adına Milli Kitabxana, AMEA-nın Mərkəzi Elmi Kitabxanası, Prezident Kitabxanası, BDU-nun Elmi Kitabxanasının fəaliyyətlərini xüsusi qeyd edir.

Avtomatlaşdırma əmək məhsuldarlığını yüksəltməyə, məhsulun keyfiyyətini yaxşılaşdırmağa, idarəetmə proseslərinin optimallaşdırmağa, sağlamlıq üçün təhlükəli istehsallardan insanları qorumağa imkan verir. Avtomatlaşdırmanın ən böyük faydası onun əməyi azaltmasıdır, bu həmçinin enerjini və material istifadəsini azaltmaq üçün və keyfiyyəti, dəqiqliyi və həssaslığı artırmaq üçün istifadə olunur (2).

Bu tədqiqata cəlb olunan digər kitabxana2003-cü ildə keçmiş Siyasi Maarif Evinin və V.Lenin adına Bakı Şəhər Kitabxanasının bazasında yaradılan Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin "Prezident Kitabxanası"dır. Kitablar və digər sənəd resursları üzrə fondlar formalaşdırmaq, informasiya ehtiyatları yaratmaq, onları mühafizə etmək, həmin fondları özündə əks etdirən mükəmməl ənənəvi və elektron kataloq-kartoteka və biblioqrafik vəsaitlər sistemini tətbiq etmək, onu daim inkişaf etdirməklə bu fondları oxucuların hərtərəfli istifadəsinə vermək kitabananın fəaliyyətinin əsas istiqamətləridir.

Kitabxananın fondunda XVI-XIX əsrlərdə və XX əsrin əvvəllərində nəşr olunmuş müxtəlif dillərdə olan nadir ədəbiyyat nümunələri saxlanılır. Fondda iqtisadiyyata, siyasətə, dövlət quruculuğuna, hüquqa, fəlsəfəyə, statistikaya, tarixə, ədəbiyyatşünaslığa və dilçiliyə dair ədəbiyyat üstünlük təşkil edir. Kitabxananın dövri mətbuat fonduna respublikamızda və digər ölkələrdə çap edilən 250 adda jurnal, qəzet və digər dövri nəşrlər daxil olur. Hazırda Kitabxanada fondun elektron nəşrlərlə komplektləşdirilməsi sahəsinə xüsusi diqqət yetirilir.

Kitabxana yaradılarkən kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması aktual məsələ olaraq gündəlikdə duran zəruri məsələlərdən idi. "Prezident Kitabxanası" kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırıl-masına İRBİS-64 sistemi vasitəsi ilə həyata keçirməyə başladı. "Prezident Kitabxanası" qısa müddət ərzində zəngin Elektron kitabxana və Elektron kataloq yarada bilmişdir (4).

2004-cü ildə Kitabxana tərəfindən alınmış bu sistem bir il müddətinə üzvlük haqqı ödənilmədən zəmanət xidmətinə götürülmüşdür. Ümumiyyətlə, sistemin tətbiqi ilə bağlı bütün problemlər: istifadəçinin sistemin yeni versiyaları ilə təmin edilməsi, istifadəçinin aldığı sistemdə qarşısına çıxana nasazlıqların qeyd-şərtsiz aradan götürülməsi, zəmanət müddəti dövründə sistemə tətbiq olunan və digər istifadəçilərə təqdim edilən əlavələrin-köməkçi yarım modullar verilməsi, sistemin tətbiqi və istismarında yaranan problemlərin operativ surətdə aradan qaldırılmasına kömək və s. EBNIT assosiasiyası tərəfindən həll edilir.

Azərbaycanda isə EBNIT assosiasiyasının məhsulunun satışını ölkə üzrə təyin edilmiş rəsmi distribyuter həyata keçirir.

İRBİS-64 AKİS-i Kitabxana-biblioqrafiya proseslərinin tam avtomatlaş-masını həyata keçirən və Klient-Server arxitekturasında işləyən mükəmməl kitabxana sistemidir və onun işçi yerlərinin sayı tətbiq edildiyi kitabxananın fondundan, oxucusundan, tipindən və növündən, habelə orada olan texniki avadanlığın sayından asılı olaraq dəyişə bilər. Lakin qeyd edək ki, ümumiyyətlə İRBİS AKİS-lərinin tətbiq edildiyi kitabxanalarıda kompüter avadanlıqları azlıq təşkil edir, modulların sayı tələbatı əhatə etməyə imkan vermir. Bütün bunlar təbii ki, daha çox kitabxanaların iqtisadi durumu ilə əlaqədardır. Adətən, İRBİS-64 sistemini alan kitabxanalar ilkin olaraq 5 standart paket-avtomatlaşmış işçi yeri götürürlər. Sistem tətbiq edilməyə başlayır, təkmilləşdikcə işçi yerlərinin artması ilə yanaşı yeni modulların əlavə edilməsi zərurəti də yaranır. AİY-lərini modullardan asılı olmayaraq ayrıca almaq da mümkündür. Ümumiyyətlə, bütün sistemlər Tətbiqi Proqram Paketləri (TPP) əsasında işləyir (PPP-ракет прикладных програмов). Sistemin proqram paketləri onun çoxşaxəli lokal və onlayn, VEB-şlyuz elementlərini əhatə edir.

Sistem tətbiqi edildiyi andan tərkibində "Testləşdirilmiş Məlumat Bazası" adlı bir sınaq bazası yaradılır ki, bu da həmin strukturda kitabxananın təmayülündən asılı olaraq ehtiyac olan miqdarda VB-Verilənlər bazaları yaratmağa imkan verir.

Bundan əlavə verilənlər bazaları vardır ki, onlar yenisi ilə əvəz edilə bilmir.

Bunlar aşağıdakı sıralamada əks olunur:
CMPL- Komplektləşdirici
RDR- Oxucu qeydiyyatı
MAGE- İmic kataloq
ATHRC- Avtoritet fayylları- Kollektiv müəlliflər ücün
ATHR A- Avtoritet fayylları Fərdi müəlliflər üçün
ATHR S- Avtoritet fayylları Predmet başlıqları üçün
ATHR G- Avtoritet fayylları Coğrafi adlar üçün
ATHR U- Avtoritet fayylları UOT-un predmet göstəriciləri üçün
ATHR B- Avtoritet fayylları KBT-nin predmet göstəriciləri üçün
URUB- Avtoritet fayylları Universal tematika navifqatoru
TEZ- tezarus
HELP- Rubrikator QRNTİ
POST- Abunə kataloqu
RODB- kitab sifarişi kataloqu
VUZ- Kitabtəminati
MESH – Tibbə dair predmet rubrikası
KZD- Əlamamətdar günlər təqvimi
ARCH- Texniki arxiv-Verilənlər bazası

Prezident Kitabxanasında İRBİS-64 sistemində 29 VB bazası vardır ki, burada həm kitablar və həm də dövrü mətbuat materiallarını əks olunur. Bu bazalardan 9-u bilavasitəən işlək bazalardır.

Göründüyü kimi, Prezident Kitabxanasının daha məhsuldar və səmərəli fəaliyyəti illər üzrə nəşrləri qruplaşdarmaqda da öz əksini tapmışdır. Kitabxananın elektronkataloqu lokal və on-layn fəaliyyət göstərməklə müvafiq oxuculara xidmət edir. İnterfeys dili kitabxananın mütəxəssisləri tərəfindən tərcümə olunsa da, daxili fayıllarda tərcümə aparılmamışdır.

İRBİS-64 sisteminin tətbiqində üstün cəhətlərdən biri EBNİT Assosiasiyasının təşkil etdiyi beynəlxalq konfranslarda (LİBKOM, Moskva şəhəri), (Krım, Ukrayna Respublikası) sistemin edilən əlavə dəyişikliklərinə yiyələnməkdə istifadəçilərə kömək göstərməsidir.

Sistem tətbiq edildiyi gündən bu günə qədər inkişafdadır. Prezident kitabxanasında sistemin tətbiqi və istismarı sahəsində ciddi problemlər yoxdur. Hər ildə iki dəfə olaraq sistemin əlavə dəyişikliklərin əhatə edən versiyalar mütəmadi şəkildə alınaraq sistemin yeniləşməsi işi həyata keçirilir. Sistemin imkanlarından istifadə etməklə demək olar ki, Azərbaycan kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq təcrübəsində analoqu olmayan tədbirlər biblioqrafik məlumat mənbələri hazırlanaraq on-layn istifadəyə verilmişdir. Azərbaycan kitabxanaçılığı üçün əsl töhfə ola biləcək biblioqrafik nəşrlərin tərtibi, kitabxana əməkdaşlarının səyi və sistemin imkanları daxilində müxtəlif biblioqrafik məlumat bülletenləri hazırlanır və bu iş hazırda davam etdiri (3).

Azərbaycan Prezidenti İlham Əliyevin əsas fəaliyyət proqramını əks etdirən biblioqrafik göstəricilər də sistemin və onun icraçılarının məhsuldar fəaliyyətində öz əksini tapmışdır. Bu qəbildən məlumatlar aşağıda göstərilən resurslar vasitəsilə istifadəçilərə təqdim edilir:

Tam mətnli elektron kitablar
-Elektron kitabxana
-Elektron kitablar
-Elektron resurslar

Məlumat bülletenləri

-Yeni kitablar

-Sənədin elektron çatdırılması (SEÇ)

Hazırda Kitabxanada istifadəçilər üçün iki avomatlaşmış oxucu yeri ayrılmışdır.

Bu sistem vasitəsi ilə fondun komplektləşdirilməsindən kitab verilişinədək bütün kitabxana proseslərinin avtomatlaşdırılması həyata keçirilir. Sistem həm də oxuculara kitabxanada hazırlanmış tammətnli verilənlər bazasından istifadəyə imkan verir. Kitabxanada Azərbaycan tarixinə, mədəniyyətinə, incəsənətinə dair fondda mövcud olan elm tutumlu, xüsusi aktuallıq kəsb edən kitabların tammətnlərinin elektron versiyası hazırlanaraq Veb səhifədə yerləşdirilir. Nəticədə Azərbaycan İnternet istifadəçiləri Prezident Kitabxanasının Veb səhifəsi vasitəsi ilə onun elektron kataloqundan və digər elektron resurslarından istifadə edə bilir (4).

Kitabxanada yaradılmış ölkəşünaslıq və diyarşünaslıq üzrə elektron resurslar ölkə rəhbərliyinə, bütövlükdə istifadəçilərə daha operativ yardım edir. Kitabxananın elektron ölkəşünaslıq və diyarşünaslıq resurslarına aşağıdakılar daxildir:

-tarix-diyarşünaslıq mövzusunda olan sənədlərin tammətnli surətləri;

-kombinə olunmuş elektron biblioqrafik verilənlər bazası;

-diyarşünaslıq sənədlərini nümayiş etdirən veb saytlar;

-elektron diyarşünaslıq nəşrləri.

Azərbaycan tarixinin bütün dövrlərini əhatə edən "Odlar Yurdu Azərbaycan" adlı tammətnli elektron baza Azərbaycan kitabxanaları arasında ilk layihədir ki, kitab, dövri mətbuat materialları, həmçinin bəzi rəsmi saytlardan əldə edilmiş tammətnli informasiya oxuculara təqdim edilir.

Layihənin əsas məqsədi ölkəşünaslıq xarakterli sənədlərin elektron informasiya daşıyıcılarına köçürməklə saxlanılması, onları daha geniş istifadəçi kütləsinə təqdim etməkdir.

Bu məqsədlə aşağıdakı Veb-sayt yaradılmışdır (4).

1. Tarixi və mədəni əhəmiyyətə malik ölkəşünasliq və diyarşünaslıq xarakterli sənədlərin toplanılması və indeksləşdirilməsi;
2. Cari informasiyaların elektron formada toplanılması və istifadəçilərə təqdim olunması;
3. Azərbaycan Respublikasına həsr olunan ən yaxşı nəşrlərin elektron surətinin istifadəçilərə təqdim edilməsi;
4. Yerli dövri nəşrlərin bazalarının yaradılması, yerli və xarici dövri nəşrlərin rəqəmsal kolleksiylarının yaradılması;
5. Sosial əhəmiyyətli istiqamətlər: səhiyyə, elm, hüquqi yardım və digər sahələr üzrə məlumat ünvanlarının yaradılması;
6. Elektron və çap formada ölkəşünasılq və diyarşünaslıq xarakterli yeni sənədlərin hazırlanması.

Kitabxana kollektivinin tərtib etdiyi digər bir tammətnli baza ulu öndər H.Əliyevin 1993-2003-cü illərdə prezidentlik etdiyi dövrdə fəaliyyətinə həsr olunmuşdur. Burada ulu öndərin bütün nitqləri, məruzələri, çıxışları və müsahibələrinin tam mətnləri verilmişdir.

Kitabxananın zəngin informasiya resursu kimi "İlham Əliyev və Azərbaycan diplomatiyası" elektron bazasını qeyd etmək olar. Sözügedən bazada Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2003-cü il oktyabr ayından başlayaraq bütün nitqlərini, məruzələrini, çıxışlarını və müsahibələrinin tammətnini toplanyaraq sistemləşdirmiş və oxucuların istifadəsinə təqdim edilir.

Qeyd etmək lazımdır ki, AKİS-lərdən istifadə respublikada ilk təcrübə olaraq kitabxanada "Sənədlərin Elektron Çatdırılması" xidmətinin tətbiqidir. Kitabxana dövrü mətbuat, "İnformasiya-biblioqrafiya və kitabxana xidməti" şöbəsinin və "İnformasiya-biblioqrafiya xidməti" bölməsinin əməkdaşları tərəfindən Azərbaycanda və xaricdə çap edilən dövrü nəşrlərdən Prezident Administrasiyasının müvafiq şöbə və bölmələrinə profilə uyğun materiallar seçilərək onların elektron versiyası yaradılır və tələbatçıların elektron ünvanına göndərilir.

Kitabxanada müasir informasiya texnologiyalarının tətbiqinə xüsusi önəm verilir. Lokal kompüter şəbəkəsi yaradılmış, İnternetə çıxış təmin edilmişdir. Portativ kompüterləri olan oxucular kitabxananın oxu zalından İnternetə simsiz əlaqə sistemi ilə də qoşula bilərlər. Kitabxanada İRBİS Kitabxana Avtomatlaşdırılma Sisteminin son versiyasının (İRBİS-64) tam komplekti tətbiq edilmişdir. Bu sistem fondun komplektləşməsindən tutmuş, kitab verilişinədək bütün kitabxana proseslərinin avtomatlaşdırılmasını təmin edir. Sistem həm də oxuculara kitabxanada hazırlanmış tammətnli verilənlər bazasından istifadə etməyə imkan verir. Bundan əlavə, hər bir İnternet istifadəçisi kitabxananın Web səhifəsi vasitəsi ilə onun elektron kataloqundan və digər elektron resurslarından istifadə edə bilər.

Kitabxanada Azərbaycan, rus və digər dillərdə olan ədəbiyyatı əks etdirən əlifba və sistemli kataloq tərtib edilmişdir. 2003-cü ildən etibarən Kitabxananın aldığı bütün kitablar haqqında məlumat Elektron kataloqa (EK) daxil edilir. 2004-cü ildən isə fonda daxil olan dövri nəşrlərdəki ən əhəmiyyətli materialların biblioqrafik təsvirləri də EK-nın tərkibindəki ayrı bir verilənlər bazasına daxil edilir. Kitabxanada müxtəlif təyinatlı biblioqrafik vəsaitlər də tərtib və nəşr edilir. EK-dan və biblioqrafik vəsaitlərin elektron variantlarından həm də Kitabxananın Web səhifəsi ilə də istifadə etmək olar. Kitabxana öz istifadəçilərinə tam həcmdə soraq-biblioqrafiya və biblioqrafik informasiya xidməti göstərir. Xüsusi oxucu qruplarına elektron poçt (E-mail) vasitəsilə də biblioqrafik informasiya xidməti göstərilir. Kitabxanada ənənəvi kitabxana-biblioqrafiya xidmətləri ilə yanaşı, İnternetdən istifadə, müxtəlif təqdimatlar və mətbuat konfranslarının keçirilməsi, skaner, surətçıxarma, laminasiya və s. əlavə xidmətlərdən də istifadə etmək olar (4).

**Nəticə.**Günümüzdə Azərbaycan kitabxanalarında milli kitabxana-informasiya sistemlərinin hər iki tərkib hissəsi-ənənəvi və elektron forması yanaşı inkişaf edir, gələcəkdə isə onların daha geniş miqyasda elektron formaya çevrilməsi labüddür. Hazırda informasiyanın elektron forması daha etibarlıdır və sənədləri kompakt qorumağa, yaymağa, onlardan istənilən formada istifadə etməyə imkan verir. Beləliklə, informasiyanın elektron formada təqdim edilməsi, elektron sənədlərin yaranması, elektron nəşrlərin meydana gəlməsi, müxtəlif elektron kolleksiyaların və elektron kitabxanaların artması günün tələbidir.

## Ədəbiyyat:

1. Ç.Məmmədov. Azərbaycan kitabxanalarında informasiya kommunikasiya texnologiyalarının tətbiqinin bəzi məsələləri // Kitabşünaslıq və informasiya. – 2011. - № 1 (4).
2. Əliyev H.Ə. Müstəqillik yollarında.C.3. - Bakı,1997. - S.397.
3. Kitabxanalar biliklər cəmiyyətində. - Bakı, 2006. - 516 s.
4. www.preslib.az

***Самир Аббасов***

## АВТОМАТИЗАЦИЯ БИБЛИОТЕЧНО-БИБЛИОГРАФИЧЕСКИХ ПРОЦЕССОВ В ПРЕЗИДЕНТСКОЙ БИБЛИОТЕКЕ УПРАВДЕЛАМИ ПРЕЗИДЕНТА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Резюме**

Сегодня использование АБИС (Автоматизированная библиотечно-информационная система) в современных библиотеках очень важно. Современные АБИС используются во всех библиотеках ведущих и развитых мировых стран. Эта работа успешно проводится также в библиотеках Азербайджана.

Первое приложение АБИС в Азербайджане было использовано в Президентской Библиотеке. На основе опыта Президентской Библиотеки успешная реализация АБИС также была проведена в других публичных библиотеках Азербайджана

В настоящее время в республике продолжается внедрение АБИС в библиотечные процессы, что является одим из приоритетных вопросов для Азербайджанской Республики.

**Ключевые слова:** *Азербайджан, библиотека, библиотечно-информационные системы,электронная информация, Президентская Библиотека.*

***Samir Abbasov***

## APPLİCATİON OF AUTOMATED LIBRARY-İNFORMATİON SYSTEMS İN PRESIDENTIAL LIBRARY OF DEPARTMENT OF AFFAİRS OF AZERBAIJAN REPUBLIC PRESIDENT

**Summary**

Today, the use of ALIS in modern libraries is a very important. Modern ALISes are used in all libraries in the world's leading and developed countries. This work is successfully carried out in Azerbaijani libraries, too.

The first application of ALIS in Azerbaijan has started in Presidential Library. Successful implementation of ALIS has also been carried out in the other libraries of the mentioned country based on the experience of Presidential Library.

Nowadays, implementation of ALIS continues in Azerbaijan libraries and this is one of the priority issues for the Azerbaijani Republic.

**Key words:** *Azerbaijan,library, library-information system, electronic information, Presidential Library*

*Redaksiyaya daxil olma tarixi 11.09.2018*
*Çapa qəbul olunma tarixi: 14.11.2018*

*Filologiya üzrə elmlər doktoru* ***Aybəniz. Əliyeva-Kəngərli*** *tərəfindən çapa tövsiyə olunmuşdur.*

.